# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YAYILAN BƏZİ ZƏHƏRLİ GÖBƏLƏKLƏR VƏ İSTİFADƏ PERSPEKTİVLƏRİ

**Həmidə Seyidova[1], Ənvər İbrahimov[2]**

*[1]AR ETN Bioresurslar İnstitutu (Naxçıvan)*
*[2]Naxçıvan Dövlət Universiteti*
*hemide_seyidova@mail.ru, enver_ibrahimov@mail.ru*

Göbələklər bitkilər və heyvanlar aləmindən fərqli olaraq ayrıca bir aləm kimi öyrənilir. Xəstəlik və zəhərlənmə halları vermələrinə baxmayaraq, təbiətdə və insan həyatında çox böyük əhəmiyyəti vardır. İnsanların göbələklərə olan marağı qədim dövrlərdən bəri davam etməkdədir.

Dünyada 120 mindən çox göbələk yayılmışdır ki, onlar da yeyilən, yeyilməyən və zəhərli növlərə bölünürlər.

Azərbaycanda papaqlı göbələklərin yeməli və zəhərli növləri ilə əlaqədar aparılan elmi tədqiqat işlərinin çoxşaxəli olmasına və yeni növlərin aşkar edilməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikası mikobiotasında onların istifadə imkanları haqqında məlumatlara rast gəlinməmişdir.

2007-2023-ci illərdə aparılan tədqiqatlar nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində yayılan papaqlı göbələklərin növ tərkibini təhlil edərkən, onların bəzilərinin qidalılıq xüsusiyyətləri öyrənilmiş, zəhərli və yeməli növlər dəqiqləşdirilmişdir.

Tərkibində toksiki maddələr olan göbələklər zəhərli göbələklər adlanır. Zəhərli göbələklər yeyilən zaman zəif və ciddi narahatlığa, hətta ölümə səbəb ola bilirlər. Göbələk zəhərlənmələri iqlim, yaşayış tərzi alışqanlıqlarına uyğun olaraq dəyişir.

Yeməli göbələklər qədimdən tanındığı kimi, insanlar zəhərli göbələklərə də bələd idilər. Qədim Avropanın bir çox ölkələrində hakimiyyət uğrunda mübarizədə zəhərli göbələklərdən də istifadə olunması haqqında məlumatlara rast gəlinir.

Ərazidə aparılan tədqiqatlar zamanı 100-dən çöx göbələk aşkar olunmasına baxmayaraq, çox az saya malik (5 növ) zəhərli növlərə də rast gəlinmişdir. Onlar *Agaricus* L., *Inocybe*(Fr.) Fr., *Paxillus* Fr. və *Hypholoma*(Fr.) P.Kumm. cinslərinə aid *Agaricus xanthodermus* Genev., *Inocybe asterospora* Quel, *I.dulcamara* (Alb. & Schwein.) P.Kumm., *Paxillus involutus* (Batsch) Fr., *Hypholoma fasciculare* (Huds.: Fr.) P.Kumm. növləri olub, palıd-göyrüş və digər ağacların əmələ gətirdiyi formasiyalarda yayılmışdır.

Qeyd edilən növlərin Naxçıvan Muxtar Respublikası mikobiotasının və biomüxtəlifliyinin formalaşmasında xüsusi əhəmiyyətini nəzərə alaraq, onların təsvirləri, bitmə yerləri və istifadə perspektivləri haqqında məlumat veririk.

1. *Agaricus xanthodermus* Genev.

Papaqcıq 5-8 sm, ətli, yastıqvari, ağ, ağımtıl-qonur, quru, hamar, kənarı bükülmüşdür. Lövhələr sərbəst, ağ, yetişdikdə tünd-qonurdur. Ayaqcıq 5-6/1-2 sm, içi boş, ağ rənglidir. Kiçik halqaya malikdir. Ləti qonurvari-ağ, ayaqcığın əsasında sarımtıl və ya narıncıdır. Sporlar ellipsoidal, qonur-çəhrayı, 8,2/5,8 mkm-dir. Qoxusu xoşagələn olmayıb, karbol turşusu və ya "aptek" iyini xatırladır. Parklarda və bağlarda yayda və payızda rast gəlinir.

Növə 7.X.2009-cu ildə Şahbuz rayonunun Biçənək meşəsində, Çəpərobası adlanan ərazidə rast gəlinmişdir.

2. *Inocybe asterospora* Quel.

Papaqcıq 3-7 sm diametrində, əvvəl zəngvari, sonra yastı təpəcikli, radial tükcüklü, paslı-qəhvəyi, nadir hallarda isə sarımtıl-qəhvəyi olur. Lövhələr bozumtul-qəhvəyidir. Ayaqcıq 3,5-8/1,2-3 sm, ağımtıl, paslı-qəhvəyidir. Sporlar 9-12/6,5-10 mkm, ulduzvaridir. Ləti ağdır.

Növ 10.VII.2007-ci ildə Biçənək meşəsindən torpaqdan toplanılmışdır.

3. *I.dulcamara* (Alb. & Schwein.) P.Kumm.

Papaqcıq oxralı-qəhvəyi, 2-4 sm, konusvari, sonralar təpəcikli, lifli-pulcuqludur. Ayaqcıq 3-4/0,3-0,5 sm, oxralı-qonur, ətciyi qonurlaşandır. Sporlar 8-11/6-7 mkm, ellipsoidaldır.

Növ 10.VII.2007-ci ildə Biçənək meşəsinin Şamlıq adlanan ərazisindən toplanılmışdır.

4. *Hypholoma fasciculare* (Huds.:Fr.) P.Kumm. – Kükürdü yalançı kötükcə.

Papaqcıq 3-5 sm, quru, kükürd kimi sarı, mərkəzi bir qədər qırmızımtıl və ya narıncıya çalır, əvvəl qabarıq, sonra səriləndir. Lövhələr qovuşan, sarı-yaşıl, kükürdü-zeytunudur. Ayaqcıq 6-9/3,5-5 sm, hörümçək toruna bənzər, örtükdən yuxarı açıq-sarı, əsasa getdikcə qonurlaşır, nazikləşir. Sporlar 6-8/4-5 mkm, açıq-bənövşəyi-boz, ellipsoidaldır. Ləti sarıdır.

Növ 6.X.2009-cu ildə Şahbuz rayonunun Biçənək meşəsində, Çəpərobası ərazisindən söyüd ağacının gövdəsindən dəstə ilə toplanılmışdır.

Meşəliyin bütün tiplərində may ayının əvvəllərində və ilin gəlişindən asılı olaraq aprel ayının ortalarında *Hypholoma fasciculare* növünə böyük qruplarla rast gəlinir. Onlara həmçinin, sentyabrın sonunda və ya oktyabrın əvvələrində, bəzən də dekabrın birinci ongünlüyündə də rast gəlmək mümkündür. *Hypholoma fasciculare* növünün zəhərliliyi haqqında çoxlu bir-birini təkzib edən fikirlər mövcud idi. Bir sıra ölümlə nəticələnən göbələk zəhərlənmələrindən sonra bu göbələyin istifadəsindən imtina edilmiş, dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda onu ölümcül zəhərli göbələklərə aid etmişlər.

5. *Paxillusinvolutus* (Batsch) Fr.

Papaqcıq 3-15 sm diametrində, əvvəlcə qabarıqlı, sonra basıq, mərkəzdə qıfvari, keçəli, sarımtıl-qonur, bəzən zeytun çalarlıdır. Lövhələr ayaqcığa sürüşən, sarımtıl, sarımtıl-qonur, əl dəyəndə qaralandır. Ayaqcıq 4-9/1,5-3 sm, hamar, papaqcıqdan açıqdır. Sporlar 8-10/4,5-6 mkm, ellipsoidal, oxralıdır. Ləti yumşaq, sarımtıldır, kəsdikdə qaralır.

Müxtəlif meşələrdə, yay və payızda, torpaqda və ya gövdələrin əsasında rast gəlinir. Əvvələr şərti yeməli göbələklərdən sayılırdı. Son illər onunla zəhərlənmə halları tez-tez baş verdiyi üçün zəhərli hesab edilmişdir.

Növ Şahbuz rayonunun Çəpərobası ərazisindən 7.X.2009-cu ildə dəstələrlə toplanılmışdır.

Ədəbiyyat məlumatlarında bəzi göbələklərin tərkibində rubidium, mis, kadmium, arsen və qurğuşun kimi ağır metalların yüksək konsentrasiyada toplanıldığı qeyd edilmişdir. Müəyyən olunmuşdur ki, torpağa qarışan ağır metallar göbələklər tərəfindən təmizlənilir. Bu səbəbdən torpaqda yayılmış ağır metalların təmizlənməsində göbələklərdən indikator kimi istifadə edilə bilər. Digər tərəfdən, zəhərli göbələklərin tərkibində muskarin, amanitin, falloidin, fallidin, viridin, virosin kimi toksiki maddələr vardır. Bu toksiki maddələr mədə, bağırsaq, öd yolları, qaraciyər, ağciyər və sinir sisteminə zərər verirlər. Meşə torpaqları üzərinə tökülmüş müxtəlif yarpaqlar, ağac qabıqları, budaq və gövdə parçaları əsasən torpaq bakteriyaları və meşə döşənəyində yaşayan papaqlı göbələklər tərəfindən parçalanaraq torpağı zənginləşdirir, təbiətdə maddələr dövranında fəal iştirak edirlər.

Göbələklə zəhərlənmələr bir çox insanların göbələklərdən qorxmasına və zəhərlənmə qorxusuna yol açır. Halbuki təbiətdən toplanıb xalqın zülal ehtiyacını ödəyən bir çox göbələk növləri mövcuddur. Bu məqsədlə təbii ehtiyatların xalqa tanıdılması olduqca əhəmiyyətlidir. Buna görə göbələk toplanan mövsüm başlamazdan əvvəl xalqın biliyinin artırılması məqsədilə monitorinqlər aparılmalı, afişalar, broşüralar, tövsiyələr, bukletlər kimi materiallara diqqət çəkilməlidir.

Zəhərli göbələklərdən dərman preparatları hazırlanması sahəsində dünyada tədqiqat işləri aparılmışdır. Müəyyən olunmuşdur ki, papaqlı göbələklərin əksər növlərindən müxtəlif xəstəliklərin müalicəsində istifadə oluna bilər. Ədəbiyyat mənbələrində *Hypholomafasciculare* növündən işlədici və ya qusdurucu vasitə, bəzilərindən vərəmin müalicəsində, *Agaricus xantodermus* növündən psilobin adlı antibiotik alınması və bu preparatdan qarın yatalağının müalicəsində müvəffəqiyyətlə istifadə olunması haqqında məlumatlara rast gəlinmişdir. Qeyd etmək lazımdır ki, xarici ölkələrin tədqiqat institutları tərkibində müəyyən fizioloji aktiv maddələr olan zəhərli göbələklərin də çoxaldılması üzərində işləyirlər. Onlardan hazırlanan preparatlardan psixi, mərkəzi sinir sistemi xəstəliklərinin müalicəsində istifadə olunur.

Bir sözlə, zəhərli göbələklərin tibbin müəyyən sahələrində istifadəsi çox böyük əhəmiyyətə malikdir. Zəhərli göbələklərdən alınmış müxtəlif dərman və antibiotiklər hazırda geniş tətbiq olunmasa da, gələcəkdə insan, heyvan və bitki xəstəliklərinə qarşı mübarizədə daha geniş istifadə ediləcəyi perspektivi çox böyükdür.